## MÜRACİƏTLƏR


- Heydər Əliyevin Azərbaycan KP MK, Respublikanın Ali Soveti və Nazirlər Sovetinə teleqramı (21 yanvar, 1990-cı il) ... 3
- SSRİ Ali Sovetinin Sədri Mixail Qorbaçova şeyxülislam Hacı Allahşükür Paşazadənin müraciəti (21 yanvar, 1990-cı il) ... 4
- SSRİ Ali Sovetinə, müttəfiq respublikaların Ali Sovetlərinə, Sovet İttifaqı xalqlarına, dünyanın bütün ölkələrinin parlamentlərinə, Birləşmiş Millətlər Təşkilatına Azərbaycan SSR Ali Sovetinin müraciəti (22 yanvar, 1990-cı il) ... 6
- Azərbaycan SSR Ali Sovetinin Azərbaycan SSR-də yaşayan bütün millətlərə və xalqlara müraciəti (22 yanvar, 1990-cı il) ... 8
- Bəxtiyar Vahabzadənin müraciəti ... 9
- Bakıda Avropa yəhudiləri dini cəmiyyətinin sədri S. D. Berdiçevskinin Azərbaycanda yaşan bütün xalqlara müraciəti ... 11
- Respublikada yaşayan rus, yəhudi və digər rusdilli vətəndaşlara Azərbaycan ziyalıları adından müraciət 12
- Ruslara, yəhudilərə və digər xalqların nümayəndələrinə respublikanın ağsaqqalları və ziyalılarının müraciəti ... 13
- Tofiq Quliyevin müraciəti ... 14
- Partiya veteranlarının şəhər əhalisinə müraciəti ... 15
- Müharibə veteranlarının şəhər əhalisinə müraciəti ... 17
- Azərbaycan KP Bakı Komitəsi yanında Qadınlar Şurasının Bakı şəhərinin qadınlarına müraciət ... 18
- Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin və AHİŞ-in respublika zəhmətkeşlərinə və əhalisinə müraciəti ... 19
- Oljas Suleymenovun müraciəti ... 20
- Bakı Şəhər Partiya Komitəsinin və Bakı Şəhər Soveti İcraiyyə Komitəsinin Bakı şəhərinin əhalisinə müraciəti ... 22
- Azərbaycanın çoxmillətli xalqına respublikanın Azərbaycan və rusdilli ictimaiyyəti nümayəndələrinin görüşü iştirakçılarının müraciəti ... 23
- Azərbaycan SSR gənclərinə və respublikada olan sovet ordusunun döyüşçülərinə Böyük Vətən Müharibəsi veteranlarının və beynəlmiləlçi döyüşçülərin müraciəti ... 26
- Bakıda təhsil almış leninqradlıların müraciəti ... 28
- Sovet İttifaqı prezidenti cənab M. S. Qorbaçova Mayns şəhərinin əhalisinin müraciəti ... 30
- SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına müraciəti (19 iyul, 1991-ci il) ... 31

- Heydər Əliyevin 20 Yanvar faciəsinin dördüncü ildönümü münasibətilə xalqa müraciəti (19 yanvar, 1994) ....................34

# Heydər Əliyevin Azərbaycan KP MK, Respublikanın Ali Soveti və Nazirlər Sovetinə teleqramı (21 yanvar 1990-cı il)

«Azərbaycan xalqına!

Bakı şəhərinə sovet ordusu hissələrinin yeridilməsi ilə əlaqədar xalqımızın başına gəlmiş faciədən — dinc əhalinin qırılmasından böyük ürək ağrısı ilə xəbər tutdum. Bu matəm günündə həlak olanların ailələrinə və yaxınlarına, bütün Azərbaycan xalqına dərin hüznlə başsağlığı verirəm.

Mən bu düşünülmüş aksiyam pisləyir, onu antihumanist, antidemokratik, qanunazidd hesab edirəm. Bu ağır gündə sizi ağıllı-kamallı olmağa, həmrəyliyə və birliyə çağırıram.

Mənim teleqramımın respublika mətbuatında dərc olunmasını, radio, televiziya ilə verilməsini, matəm mitinqində oxunmasını xahiş edirəm.

**Heydər Əliyev**

21 yanvar 1990-cı il, Moskva».

**V.Andriyanov, H. Mirələmov. Heydər Əliyev – B.:Nurlan, 2008. – S. 269.**

## SSRİ Ali Sovetinin Sədri Mixail Qorbaçova şeyxülislam Hacı Allahşükür Paşazadənin müraciəti (21 yanvar 1990-cı il)

Nə qədər olsa da mənim sözlərim Azərbaycan xalqının sonsuz kədərini, milyonlarla insanın ürəyinə hakim kəsilmiş müsibəti heç cür çatdırmaq iqtidarında deyil.

Mən bunları ona görə demirəm ki, Siz bizim dərdimizə şərik olasınız, bizimlə bölüşəsiniz. Bu mənim xalqım üçün təhqir olardı. Bu mənim şəhid olmuş həmvətənlərimin ruhunu təhqir etmiş olardı. Yanvarın 19-dan 20-nə keçən keçə və sonrakı günlər Bakıda törədilən vəhşiliklər heç bir ölçüyə sığmır. Şəhərin küçələri yüzlərlə günahsız qurbanların qanına boyanmışdır. Bunların arasında uşaqlar, qadınlar və qocalar vardır. Onların tankların tırtılları altında qalmış, pulemyot və avtomatlarla tikə-parça edilmiş cəsədləri insanı dəhşətə gətirir.

Bir dövlət başçısı kimi sizin imzanızla törənən bu qanlı qırğına, bu dəhşətli cinayətə heç bir bəraət ola bilməz.

Qoşunların yeridilməsi üçün uydurulmuş bütün səbəbləri Azərbaycan xalqı nifrət və qətiyyətlə rədd edir. həmin səbəblərdən biri - guya Sovet dövləti üçün təhlükə sayılan qondarma «İslam faktoru» ortaya atılmışdır.

Bununla əlaqədar mən aşağıdakıları bildirirəm. İman əhli olmaq, o cümlədən islama mənsubiyyət əslində günah hesab edilən şovinizmdən, milli lovğalıqdan uzaq olmaq deməkdir. Çox yaxşı bilirsiniz və bunu mənim Sizə vaxtilə dediklərim də sübut edir. Zaqafqaziyanın müsəlman ruhaniləri siyasi və millətlərarası münaqişələrində dindən silah kimi istifadə etmək niyyətində olmamışlar. Çox yaxşı bilirsiniz ki, diyarımızda baş verən hadisələrin ən ağır anlarında islam ağılla və bütün məsələlərin dinc yolla həllinə çağırmışdır.

Belə olduğu halda uydurma «islam faktorunu» hərc-mərclik törədən bir səbəb kimi ortaya atmaq qəzəb doğurmaya bilməz.

Tamamilə aydındır ki, bununla müəyyən məqsəd güdülmüşdür. Demək müsəlmanları xristianlara qarşı qoymaqla millətlərarası toqquşmaları daha kəskinləşdirmək niyyəti güdülmüşdür.

Siz bilin ki, bu faciə ilə bağlı əsl həqiqəti dünya ictimaiyyətinə çatdırmaq üçün əlimizdən gələni edəcəyik. Çünki, o dövlət ki. imperiya hökmranlığı niyyəti ilə millətlərarası çaxnaşmanı aradan qaldırmaq əvəzinə onu daha da qızışdırır, o dövlət ki, öz ordusunu öz vətəndaşlarının qatilinə çevirir, o dövlət ki, öz adamlarına layiqli güzərandan daha çox ölmək hüququ verir, belə dövlət ancaq nifrətə layiqdir.

Bakıda canlı insan ürəklərinə tuşlanmış qüllələr milyonlarla insanın yenidənqurmaya olan son ümidlərini məhv edən bir atəş idi.

Özlərini əsl işğalçı kimi aparan cəza qoşunlarını Bakıya yeritməklə Siz sovet hökumətini rüsvay etdiniz və bununla təsdiq etdiniz ki, müstəqillik və xalqların ləyaqəti kimi anlayışlar bu hökumətə tamamilə yaddır. Siz bununla özünüzü bir siyasi xadim və bacarıqsız bir dövlət başçısı kimi ifşa etdiniz. Sizin haqqınızda yaranmış bir əfsanə də puç oldu, çünki bir əli ilə xarici məmləkətlərə sülh sazişi, o biri əli ilə öz vətəndaşlarına qarşı cəza tədbirləri imzalayan adamı «sülh uğrunda mübariz» adlandırmaq ən azı ləyaqətsizlikdir.

Ən qanlı müharibələrdə həkimlərə, tibb yardımı göstərənlərə atəş açılmamışdı. Sizin əmrinizlə Bakıya hücum edən qoşunlar isə yaralananlara kömək göstərən iki həkimi də güllələmişlər.

Bütün Azərbaycan xalqının iradəsini ifada edərək mən Bakıdan qoşun hissələrinin dərhal çıxarılmasını qətiyyətlə tələb edirəm. Heç bir xalqla, həmçinin azərbaycanlılarla silah gücüylə danışmaq olmaz.

Bu, 10 gün, yaxud Əfqanıstandakı kimi 10 il davam edə bilər. Amma gec-tez ədalət və haqq işi qələbə çalmalıdır.

Allah-taalanın izni ilə, bu haqq işi Azərbaycanda da qalib gələcəkdir. Məhz buna görə mənim xalqımın ən yaxşı oğul və qızları özlərini sovet qoşunlarının qüllələrinə sipər etdilər. Dərin inamla və iman hissilə üzümüzü Allah-taalaya tutur və onun ulu dərgahından bu gün şəhid olan balalarımız üçün rəhmət diləyirik. Qoy Allah-taala bu fəlakəti mənim xalqımın başına gətirənləri, bu işə rəvac verənləri zəlil eləsin.

Ya Rəbb, Vətənimin, elimin bu ağır günündə bizlərə özün kömək elə, AMİN!

**Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri**

**Şeyxülislam Hacı Allahşükür Paşazadə**

**surətləri: BMT-nin baş katibi Peres de Kuelyara,**

**bütün dövlətlərin və dinlərin başçılarına**

**21 yanvar, 1990-cı il**

# SSRİ Ali Sovetinə, müttəfiq respublikaların Ali Sovetlərinə, Sovet İttifaqı xalqlarına, dünyanın bütün ölkələrinin parlamentlərinə, Birləşmiş Millətlər Təşkilatına Azərbaycan SSR Ali Sovetinin müraciəti (22 yanvar 1990-cı il)

Bakının və bütünlükdə Azərbaycanın dinc əhalisinə qarşı misli görünməmiş dəhşətli cinayət törədilir. Helsinki və Vyana müqavilələrinin sənədlərini imzalayan, 1991-ci ildə Moskvada insan hüquqları məsələləri barədə beynəlxalq konfrans keçirməyi planpaşdıran, demokratikləşmədən, yeni təfəkkürdən dəm vuran, hüquqi dövlət yaratmaq iddiasında olan Sovet dövləti qanunları tapdalayaraq SSRİ Konstitusiyasının bir sıra maddələrini pozmuş, SSRİ Ali Sovetinin sanksiyası və respublikanın ali hakimiyyət orqanlarının razılığı olmadan yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycana qarşı açıq təcavüz etmişdir. Bakıda vəziyyətin əsasən sabitləşdiyi bir vaxtda müxtəlif silah növlərindən (tanklardan, zirehli transportyorlardan, avtomat silahlardan, hərbi aviasiya və donanmadan) istifadə edərək, elan olunmadan Bakı şəhərinə, Naxçıvan MSSR-ə və respublikanın digər regionlarına hücum edib dinc əhalini, Bakıda fövqəladə vəziyyətin elan olunmasına və şəhərə qoşun hissələrinin girməsinə etiraz edənləri amansızcasına qırmışlar. Yüzlərlə ölən, minlərlə yaralanan və itkin düşənlər var. Ölənlər arasında qadınlar, uşaqlar, qocalar az deyildir. Bu qanlı fitnəkarlığın hələ ümumiləşdirilməmiş nəticəsi belədir.

İnsanlıq simasını itirmiş hərbi canilər hətta təcili yardım maşınlarını tankların altında qoyub, yaralıların köməyinə gələn həkimləri belə öldürməkdən çəkinməmişlər. Hərbçilər həlak olanların cənazələrini vertolyotlardan dənizə atıb, yandırıb, hərbi nəqliyyat vasitələri ilə kənara çıxarıb hər cür tədbir görürlər ki, həlak olanların dəqiq sayı aşkar olmasın. SSRİ ali hakimiyyət orqanları yanvarın 13-15-də Bakıda kimlər tərəfindən törədildiyi çox şübhəli olan qarışıqlıqları bəhanə edərək, Azərbaycanda silahlı dövlət çevrilişi, hərbi dəstələrin yaradılması, islam fundamentalizmi haqqında cəfəng uydurmaları əsas tutaraq qanlı cəza əməliyyatına başlamışlar. SSRİ Konstitusiyasının 119-cu maddəsinin 14-cü bəndinə istinad etməyə gəldikdə isə, demək lazımdır ki, qanun fövqəladə vəziyyət elan edilməsini həmin ərazinin daxil olduğu müttəfiq respublikanın Ali Soveti Rəyasət Heyətinin müzakirəsinə verməyi nəzərdə tutur. Lakin məlum olduğu kimi, həmin məsələ Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin nəinki müzakirəsinə verilməmiş, hətta respublika Ali Soveti Rəyasət Heyəti sədrinin razılığı olmadan həll edilmişdir. SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri SSRİ Konstitusiyasında nəzərdə tutulduğu kimi, müttəfiq respublika olan Azərbaycanın suveren hüquqlarını müdafiə etmək əvəzinə, bütün qanunları özbaşına pozaraq qanunsuz fərman vermişdir.

Azərbaycan SSR Ali Soveti xalqımıza qarşı bu cinayətə son qoyulmasını, SSRİ Ali Soveti Rəyasət Heyətinin Bakıda və Azərbaycan SSR-in digər rayonlarında (DQMV istisna olunmaqla) fövqəladə vəziyyətin ləğv olunmasını, bütün cəza dəstələrinin, fövqəladə vəziyyətlə bağlı gətirilmiş silahlı qüvvələrin respublika ərazisindən dərhal çıxarılmasını tələb edir.

Azərbaycan SSR Ali Soveti ölkə və dünya ictimaiyyətinə müraciət edərək onları Azərbaycan torpağında törədilmiş bu milli qırğın aktını pisləməyə çağırır.

Azərbaycan SSR Ali Soveti, Azərbaycan xalqı bu müraciəti ilə qanlı cinayətə öz münasibətinizi bildirməyinizi sizdən xahiş edir.

**Müraciət Azərbaycan SSR Ali Sovetinin 1990-cı il 22 yanvar tarixli fövqəladə sessiyasında qəbul olunmuşdur.**

## Azərbaycan SSR Ali Sovetinin Azərbaycan SSR-də yaşayan bütün millətlərə və xalqlara müraciəti
## (22 yanvar 1990-cı il)

Əziz yurddaşlar, həmvətənlər!

Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi, dinc sakinlərlə toqquşmalar və bunun insan tələfatına gətirib çıxarması şəhərin bütün əhalisinin haqlı qəzəbinə səbəb olmuşdur.

Bir sıra məsuliyyətsiz şəxslər. o cümlədən mərkəzi mətbuat belə bəyanat verirlər ki, guya Azərbaycanda ruslar əleyhinə hərəkat başlanmışdır. Bununla onlar azərbaycanlılarla rusların arasını vurmağa, iki xalq arasında çoxəsrlik dostluq və qardaşlıq ənənələrini pozmağa cəhd göstərirlər.

Azərbaycan SSR Ali Soveti respublikanın çoxmillətli xalqı adından məsuliyyətlə bildirir ki, bu çətin günlərdə bir-birinə əl uzadan, bir-birinə arxa olan Azərbaycan və rus xalqları arasındakı mövcud dostluğa qəsd edənlər bizim düşmənlərimizdir.

Heç bir qara qüvvə respublikamızın beynəlmiləl ənənələrini poza bilməz, Azərbaycan SSR-nin faciəsində əsl günahkarlardan ictimaiyyətin diqqətini yayındıra bilməz.

Dostluq və qardaşlığımız əbədidir. Buna şübhə yoxdur. Başqa cür də ola bilməz.

Bu ağır günlərdə əmin ola bilərsiniz ki, Azərbaycan xalqı sizinlə dostluq tellərini daha da möhkəmləndirəcək, aramızda olan səmimiyyətə xələl gəlməməsi üçün əlindən kələni əsirgəməyəcəkdir.

**Müraciət Azərbaycan SSR Ali Sovetinin 1990-cı il 22 yanvar tarixli fövqəladə sessiyasında qəbul olunmuşdur.**

**“Bakı”.** - 1990. – 29 yanvar. - № 16 - S. 2**.**

## Bəxtiyar Vahabzadənin müraciəti

Bizim xalqımız dərdə dözümlü, ölümün qarşısında baş əyməyən, öz dərdini özü çəkməyə çalışan, iradəsi, qüruru hər bəladan güclü olan bir xalqdır. Sən də, mən də, o da, qocalı-cavanlı hamımız yaxşı bilirik ki, itkimiz nə qədər ağır olsa da, həyat dayanmır, öz yolu ilə davam edir. Bizim kədərimiz ürək sızıldadan kədər olaraq qalır və bu, heç bir vaxt soyumayacaq. Dediklərim təskinlik üçün deyil, bilirəm, heç vaxt tam rahat olmayacağıq. Amma buna baxmayaraq, dönə-dönə deyirəm: Allah səbr versin!

Mənə inanın, əgər bu ağır günlərdə səbrli olmasaq, əsəblərimizi cilovlamasaq, özümüzü ələ almasaq, xalqımıza daha böyük bəlalar üz verər.

İndi üstümüzə şər atırlar, böhtan yağdırırlar. Atalar özünü böhtandan, şərdən gözlə, - deyiblər. Şayiə yayırlar ki, guya biz başqa millətlərin nümayəndələrini, xüsusən rusları gözümçıxdıya salmışıq. Ağ yalandır!

Tarix şahiddir ki, biz həmişə qonşunu qohumdan yaxın saymışıq, dostu qardaşdan əziz tutmuşuq. Bakıya nahaq yerə beynəlmiləl şəhər deməyiblər. Beynəlmiləlçilik bizim təbiətimizdədir, qanımızda, canımızdadır. Allah özü bilir ki, biz rus xalqına qarşı deyilik, biz ədalətin və həqiqətin müdafiəsindəyik, düzgün olmayan siyasətin əleyhinə çıxırıq.

Köçmək istəyən ruslara başa salın ki, şayiələrə, fitnələrə uymasınlar. Rus qonşularınızı, dostlarınızı agah edin, lazım gəlsə dilə tutub saxlayın. Qonşu qonşunu, dost dostu düz başa düşər.

Mən dünya görmüş adamam - narahatlığım əbəs deyil. Milli ədavət toxumu səpənlərin məkri, kin-küdurəti tükənməzdir. İndi də bizi rus xalqı ilə salışdırmaq istəyirlər. Dəhşətli xəyanətdir.

Bu rəzalətli iş həyasızlıqla görülür. hətta mərkəzi qəzetlərdə qərəzli yazılar, yalan xəbərlər dərc olunur. Əminəm ki, bütün bunlar Moskvada, Leninqradda, digər şəhərlərdə yaşayıb işləyən azərbaycanlılara hücumla nəticələnə bilər. Amandır, fitnəkarlığa uymayın, millətimizin nüfuzuna, adına xələl gətirən əməllərə yol verməyin.

Rəvayətlər gəzir ki, guya burada islam respublikası yaratmaq istəmişik. Yalandır! Azərbaycan xalqının ürəyindən, belə bir fikir keçməyib. Biz yalnız və yalnız öz torpağımızın, əlimizdən çıxmaqda olan Qarabağın geri qaytarılması barədə düşünmüşük və bunun uğrunda mübarizə aparmışıq.

Mübarizəmiz zəif olub. Çünki rəhbərliyimiz xalqla ələ verib işləməyi bacarmırdı. Ümidvarıq ki, yeni rəhbərlik xalqdan ayrı düşməyəcək, xalqla əl-ələ verib işləyəcək.

Yenə qayıdıram sözümün əvvəlinə. Bir daha xahiş edirəm, torpağımızın bütövlüyü naminə, xalqımızın gələcəyi naminə, şəhidlərin nakam arzusu naminə dostluğumuzu, qardaşlığımızı qoruyun!

Həmişə, ən çətin dəqiqələrdə iman gətirdiyimiz Allah da, Quran da səbrə, təmkinə, düşüncəyə çağırmışlar. Qoy bu dəfə də belə olsun!

**Bəxtiyar VAHABZADƏ**

**“Bakı”.** - 1990. – 29 yanvar. - № 16 - S. 2**.**

## Bakıda Avropa yəhudiləri dini cəmiyyətinin sədri S. D. Berdiçevskinin Azərbaycanda yaşan bütün xalqlara müraciəti

Mənim əziz həmvətənlərim - azərbaycanlılar, ruslar, yəhudilər və başqaları!

Respublikamız üçün bu ağır dəqiqələrdə sizi birləşməyə, aramızdakı möhkəm dostluğu pozmaq, nifaq salmaq istəyən hər kəsə qarşı mübarizə aparmağa çağırıram. Azərbaycanlılar bizim qardaş və bacılarımızdır və biz bundan sonra da onlarla səmimi dost və qardaş olmağı. duz-çörəyimizi bölməyi arzulayırıq. Biz bu xalqdan həmişə səmimiyyət, dünyada ən müqəddəs şey olan qardaşlıq görmüşük. Bizi bir-birimizdən ayırmaq bəlkə də kimlər üçünsə faydalıdır, amma hamı üçün bir olan Allah-təala bunu heç kimə bağışlamaz. Şayiələrə və dedi-qodulara inanmayın, gəlin birlikdə onları rədd edək.

Peyğəmbərlər - İsa, Musa və Həzrət Məhəmməd hər bir dindar adamın ürəyində olub və olacaqdır. Bu günlər bizlərdən hər birinin müqəddəs borcu Azərbaycanda olan bütük millətlərin sakitlik, mehribanlıq və dostluq şəraitində yaşaması üçün lazım olan hər şeyi etməkdir. Azərbaycanı suveren və çiçəklənən respublikaya çevirmək üçün birlikdə çalışmalıyıq. Bu, özümüzə, uşaqlarımıza və gələcək nəsillərə lazımdır.

**Semyon Davndoviç BERDİÇEVSKİ,**

**Bakı şəhərindəki Avropa yəhudiləri dini cəmiyyətinin sədri.**

**“Bakı”.** - 1990. – 29 yanvar. - № 16 - S. 4.

# Respublikada yaşayan rus, yəhudi və digər rusdilli vətəndaşlara Azərbaycan ziyalıları adından müraciət

Əziz bacı və qardaşlarımız!

Biz sizinlə onilliklər ərzində yanaşı yaşamış, duz-çörək kəsmiş, sevinc və kədərimizi bölüşdürmüşük. Evimiz, yurdumuz və taleyimiz bir olmuşdur.

Azərbaycan xalqının bu ağır günündə də sizi əmin edirik ki, dostluğumuzu heç kim qıra bilməz. Bizim bu ağır sınaq günlərimizdə bəzi şəxslər aralığa təşviş salmağa çalışır, qeyri-azərbaycanlı əhalini Bakıdan çıxıb getməyə təhrik edirlər,

Bacı və qardaşlarımız!

Alçaq niyyətli şayiələrə inanmayın. Azərbaycan xalqı aramıza nifaq salanlara, birliyimizi parçalayanlara qəzəb və nifrətini bildirir. Sizi əmin edirik ki. mənfur niyyətə əl atanlara imkan verməyəcəyik. Bizim sizinlə eyni bir yolumuz, məqsədimiz vardır, bu da suveren və çiçəklənən Azərbaycan uğrunda mübarizədir. Bu ölkə həmişəlik bizim ümumi evimiz olacaqdır.

**Nizami SÜLEYMANOV.**

**Azərbaycan SSR EA-nın müxbir üzvü, respublika Ağsaqqallar Şurasının üzvü.**

**“Bakı”.** - 1990. – 29 yanvar. - № 16 - S. 4**.**

## Ruslara, yəhudilərə və digər xalqların nümayəndələrinə respublikanın ağsaqqalları və ziyalılarının müraciəti

Respublikanın ağsaqqalları və ziyalıları dəhşətli yanvar hadisələri zamanı həlak olmuş azərbaycanlılara, ruslara, yəhudilərə və digər xalqların övladlarının ailə və qohumlarına bir daha dərin hüznlə başsağlığı verirlər.

Bu ümumxalq faciəsi sübut etdi ki, Azərbaycanda yaşayan ruslar, yəhudilər və başqaları Odlar diyarını azərbaycanlılar qədər sevirlər, lazım gəldikdə özlərini qurban da verirlər.

Lakin bu ağır günlərdə qeyri xalqların nümayəndələri ilə azərbaycanlıların arasında nifaq salmaq üçün əllərindən kələni edənlər var.

Nifaq salanlar kimliyindən asılı olmayaraq bizim xalqların hiyləgər düşmənidir. hamıya aydın olmalıdır ki, bu yaramaz əməllər əvvəlkilər kimi də qabaqcadan hazırlanmış ssenariyə uyğun həyata keçirilir.

Azərbaycanlılar, ruslar, yəhudilər, digər bacı və qardaşlarımız!

Biz ümumi düşmənlərimizə qarşı mübarizəyə qalxmalı, onları ifşa etməli, xalqın məhkəməsinə verməliyik. Bu günlər bəzi yaramaz ünsürlər bir sıra alçaq niyyətlərlə əl atırlar — dükanların, mağazaların satıcılarına hədə-qorxu gəlib qeyri-millətlərə azuqə satılmasını qadağan etmək istəyirlər. Belə şəxslər barədə təcili surətdə lazımi təşkilatlara xəbər verilməlidir.

Ruslar, yəhudilər, azərbaycanlılar və digər xalqların nümayəndələri respublikamızda heç vaxt milli ayrı-seçkiliyə yol verməmiş, doğma bacı-qardaş və qohumlar kimi yaşamış, sevinci və kədəri birgə bölmüşlər. Xalqımızın bu ağır günündə şəhid olmuş övladlarımızın müqəddəs ruhuna and içirik ki, birliyimizi həmişə qoruyub saxlayacağıq. Bir nəfər də olsun rus, yəhudi və digərləri doğma respublikanı tərk etməməlidir. Gedənlərə deyirik: — kiminsə fitnələrinə uyub xalqlar arasına çaşqınlıq salmayın, siz bununla ümumi düşmənlərimizin dəyirmanına su tökmüş olursunuz.

Əziz bacı və qardaşlarımız! Gəlin birləşib, Azərbaycanın suverenliyi və çiçəklənməsi uğrunda mübarizədə əlimizdən gələni edək, var qüvvəmizi əsirgəməyək.

**Bəxtiyar VAHABZADƏ, Bayram BAYRAMOV, İsmayıl ŞIXLI. Fikrət QOÇA, Həsən ABDULLAYEV, Eldar SALAYEV, Aslan ASLANOV, Mirabbas QASIMOV, Maqsud ƏLİYEV, Urxan ƏLƏKBƏROV, Nəriman QULİYEV. Ümumiyyətlə 273 imza.**

**“Bakı”**. - 1990. – 29 yanvar. - № 16 - S. 2.

## Tofiq Quliyevin müraciəti

Öz tarixində ən çətin, ən ağır dövrlərdən birini yaşayan xalqıma bilmirəm neçə təskinlik verim, qan ağlayan ürəkləri necə ovundurum. Təskinlik verməyə əsas varmı? Hamımız matəm içindəyik. Ölən bir deyil, beş deyil... Özü də haqqın, ədalətin təntənəsinə bir uşaq məsumluğu ilə, fanatikcəsinə inanan günahsız insanlar şəhid olublar. Onlar xalqımızın qəsdən təhrif edilən siyasətə ürcah olmasını qəbul edə bilmirdilər, inanmaq istəmirdilər bu oyunbazlığa. İnanmırdılar ki, bu siyasətin davamı həqiqətin aliliyinə etiqad bəsləyənlərin güllləbaranı olacaq, Bakının küçələrinə axıdılan qan olacaq. Etiqadı, inamı axıra qədər hifz elədilər - nəsibləri ölüm oldu.

Üz-gözlərini cıran, saçlarını yolan ana-bacılara, gəlinlərə, bu faciəyə göz yaşı axıdan bütün azərbaycanlılara necə təsəlli verəsən ki, təsəlliyə bənzəsin?

Vəziyyətin bu yerə gəlib çıxmasında təqsiri olanların hamısı öz layiqli cəzasını alacaqdır. Amma bu da təskinlik deyil.

Ölənlərin uşaqları böyüyəcək, əz ömürlərində valideynlərinin də ömürlərini yaşayacaqlar, nəsil, say artıracaqlar. Amma bu da təsəlli deyil. Şəhidlərin çoxu gənclərdir axı!

Bizə ünvanlanan əsassız ittihamlara qarşı vaxtında, düşünülmüş şəkildə mübarizəyə başlamağın zəruriliyini, xalqımızın sözdə deyil həyatda, əməldə birləşməsinin vacibliyini qan bahasına dərk etdik.

Bu, yeddi milyonluq xalqın gələcək taleyi ilə bağlı həqiqətdir. Deməli, təsəllidir. Amma necə də gecikmiş, utandıran təsəllidir...

Ən pisi budur ki, ədalətsiz bir oyunun qurbanlarına çevrildiyimizi, uçurum kənarında dayandığımızı bilirdik. Lakin xalqı bu fəlakətdən uzaqlaşdırmağa borclu olanlar, səlahiyyəti çatanlar gecikdilər, qəti qərara gəlməyə, son addım atmağa tələsmədilər. Əksinə, fitnəkarlıq yolu tutdular. Şəhidlərin qanı tutsun onları!

Ürəyimiz hüznlə. kədərlə doludur. Amma sayıqlığı, səbir və təmkini yaddan çıxarmaq olmaz. Son vaxtlar yerli-yersiz çox işlədildiyindən şablonlaşan, dəyər və sanbalını itirən bu sözlərin öz urvatına mindiyi, real məzmun qazandığı məqamdır. Hadisələrin mahiyyətini, bu faciəni doğuran ilkin səbəbləri ört-basdır edən sofist siyasəti davam edir axı! Xalqımızın müstəqillik, suverenlik duyğularına hər cür qara yaxmağa çalışanlar qanlı Bakı hadisələrini azərbaycanlıların «cəlladlığının», intizama riayət etmək istəməmələrinin nəticəsi kimi mənalandırmaq istəyir, şəhərin rus millətindən olan bəzi sakinlərinin səbəbsiz olaraq başqa şəhərlərə köçmək arzusuna istədikləri kimi don geydirirlər.

**Tofiq QULİYEV, Azərbaycan Bəstəkarlar İttifaqı idarə heyətinin katibi, Azərbaycan SSR xalq artisti.**

**“Bakı”.** - 1990. – 30 yanvar. - № 17 - S. 4.

## Partiya veteranlarının şəhər əhalisinə müraciəti

Yurddaşlarımız — azərbaycanlılar, ruslar, yəhudilər, ukraynalılar, digər millətlərin nümayəndələri! Sizlərdən kimi on illərlə, kimi isə ömrü boyu doğma şəhərin rifahı naminə çalışıb, evlər tikib, neft çıxarıb, uşaqlara elm öyrədib, qatar sürüb. Ağır müsibətdən kədərlənərək və həlak olanların ailələrinə başsağlığı verərək sizə, sizin ağlınıza, qəlbinizə müraciət edirik!

Biz, partiya veteranları çətin həyat yolu keçmişik. Fərəhli günlərimiz də olub, kədərli günlərimiz də. Lakin istər Stalin repressiyaları dövründə, istərsə də müharibə illərində elə bir vaxtı xatırlamırıq ki, çətin vəziyyətdən çıxış yolu tapa bilməyək. Həmişə ümidlə ki, yaşamışıq yaxşı vaxtlar gələcək, zülmət dağılacaq, ədalət təntənə çalacaq.

İndi də belə olacaq. Biz buna inanırıq. Faciəli yanvar hadisələrinin səbəbləri, xalq kədərinin əsl müqəssirləri çıxarılacaqdır. Lakin hər şeyi araşdırmaq lazımdır. Həm də bu işi tələm-tələsik görmək olmaz. Çünki yeni səhvlərə, anlaşılmazlıqlara yol verilə bilər. Biz həqiqəti bilmək istəyirik və nə qədər ağır olsa da onu öyrənəcəyik.

Oğlunu, qızını itirmiş analara təsəlli vermək çətindir. Bu, bütün bakılıların kədəri, dərdidir. Həmişə mehriban olan beynəlmiləl şəhərimizə böyük bəla üz vermişdir. Lakin həyat davam edir. Biz adət etdiyimiz küçə səs-küyünə böyük ümidlə qulaq asır, nəqliyyatın hərəkətinin bərpa olunmasına, qəzetlərin yeni nömrələrinin köşklərə gəlməsinə sevinirik. Radio və televiziya verilişlərini böyük ümid hissi ilə gözləyirik. Bu çətin günlərdə xəstəxanalara, çörək zavodlarına, mağazalara, metroya işə gedən adamların hamısına səmimi təşəkkürümüzü bildiririk. Onlar bakılıları ən zəruri şeylərlə təchiz edir, şəhərin həyat ahənginə təkan verirlər.

Xalqımız çox çətinlikdən, sınaqdan çıxıb. Lakin biz bunların hamısını birlikdə, bütün ölkə ilə əlbir şəraitdə aradan qaldırmışıq və heç vaxt milli əlamətlərə görə ayrıseçkilik salmamışıq. Xeyirxahlıq, vicdanlılıq, əməksevərlik bu gün də insaniyyət meyarları olmalıdır. Yalnız belə şəraitdə bu ümumi bəladan xilas ola bilərik.

Kədər adamların ağlını çaşdırmamalıdır. Uşaqlarımızın, respublikamızın gələcəyi naminə indi yalnız dünəni deyil, sabahı da düşünməliyik. Olan olub. İndi sağ qalanlar barədə fikirləşmək, normal əmək həyatına qayıtmaq lazımdır. Heç bir şayiəyə və vahiməyə uymamalıyıq.

Bakıda vəziyyət əvvəlki kimi mürəkkəbdir. Lakin Azərbaycan torpağına sülh və sakitlik öz-özünə gəlməyəcəkdir. Şəhərdə sakitliyin bərqərar olması, asayiş yaranması hər birimizdən asılıdır. Başlıcası budur ki, qəlbimizdə ümid çırağı yandıraq, hamımız — həm partiya veteranları, həm tələbələr, həm gənc analar milli inkişaf və sosial tərəqqi naminə ümumxalq hərəkatında yekdil olmalıyıq.

**Q. NƏSİROV, F. ŞLYOMOVA - AXUNDOVA,**

**H. ƏLİYEV, M. MAHMUDOV, N. NƏCƏFOV.**

**<u>“Bakı”</u>.** - 1990. – 30 yanvar. - № 17 - S. 3**.**

# Müharibə veteranlarının şəhər əhalisinə müraciəti

Əziz bakılılar, bacı və qardaşlarımız, oğul və qızlarımız! Azərbaycan xalqı üçün bu müsibətli günlərdə sizə müraciət edirik. Dərdimiz ağır, kədərimiz hüdudsuzdur. Cəsur oğul və qızlarımız əzəli və əbədi məskənimiz Azərbaycanın tam suverenliyi və ərazi bütövlüyü naminə canlarını fəda etmişlər. Öz sələflərinin qəhrəmanlıq ənənələrinə sadiq qalanların, haqq yolunda həlak olanların məzarı önündə baş əyir və deyirik: Allah sizə rəhmət eləsin! Şəhərimizdə yaşayan bütün müharibə veteranları şəhidlərimizin valideynlərinə, yaxın adamlarına dərin hüznlə başsağlığı verirlər. Günahsız adamların qanını tökülməsini heç vaxt unutmayacağıq. Biz fövqəladə vəziyyət elan edilməsi barədə əvvəlcədən xalqa xəbər verilmədən qoşunların qəflətən dinc şəhərə yeridilməsini və bunun çoxlu insan tələfatı ilə nəticələnməsini pisləyirik.

Vətənin qüdrəti onun xalqlarının dostluğunda, birliyindədir. Yarım əsr bundan əvvəl Hitler ölkəmizə xaincəsinə basqın edərkən elə düşünürdü ki, sovet xalqlarının birliyi ilk zərbələrdən dağılacaqdır. Lakin bu xülyanın cəfəngiyat olduğu hamıya məlumdur. Məhz xalqlarımızın sıx birliyinin gücü ilə azğın düşmənə qalib gələ bildik. Deməli, Vətənimizin tərəqqisini istəyiriksə, balalarımızın gələcəyini düşünürüksə dostluğumuzu qoruyub saxlamalıyıq.

Qardaşlar, bacılar! Övladlarımız! Xalqımıza üz vermiş itki nə qədər ağır olsa da biz sarsılmamalı, özümüzü itirməməliyik. Bununla düşmənlərimizin dəyirmanına su tökmüş olarıq. İndi hər birimizin borcu şəhərdə sakitliyin, əmin-amanlığın bərqərar olmasına kömək etməkdən, Yaralıların sağalmasına, öz övladlarını, əziz-xələflərini itirən ailələrə yardım və qayğı göstərməkdən ibarətdir. Asayişə nə qədər tez nail olsaq, şəhərimizdə fövqəladə vəziyyət də bir o qədər tez ləğv edilər. Gərək bu ağır sınaqdan da ləyaqətlə çıxaq. Bütün dünyaya bir daha sübut edək ki, biz nəcib, xeyirxah adamlarıq. Gəlin əl-ələ verək, dostlarımızı düşmənlərimizdən ayıraq, şəhərimizdə yaşayan bütün millətlərin övladları ilə əlbir şəraitdə haqq işimiz uğrunda mübarizə aparaq. Bununla biz şəhidlərin ruhuna böyük hörmət etmiş olarıq.

**S. SƏLİMOV, A. ABBASOV, Ə. MÜRSƏLOV, Q. ƏSƏDOVA, A. BABAYEV, V. TEREXOV, R. ŞEYXZAMANOV, E. ŞAHBAZOV, Ə. RƏCƏBOV, B. MEHDİYEV, Ə. ABBASOV, M. ABBASOV, P. SKVİRSKİ, İ. İSMAYILOV, X. NASIROV, Z. RZAYEV.**

**“Bakı”.** - 1990. – 30 yanvar. - № 17 - S. 3.

## Azərbaycan KP Bakı Komitəsi yanında Qadınlar Şurasının Bakı şəhərinin qadınlarına müraciət

Analar, bacılar, rəfiqələr!

Həyatın ən ağır və çətin dəqiqələrində ana nəsihəti, ağbirçək öyüdü kəsərli olub. Ərlərimiz, oğullarımız, qardaşlarımız – insan ləyaqətini və şərəfini hər şeydən yüksək tutan, dar ayaqda kömək göstərməyi bacaran hər kəs bizim sözümüzü hörmətlə dinləyib. Biz hər şeydən əvvəl, atalarını, başçılarını vaxtsız itirmiş ailələrə müraciət edir, onlara dərin hüznlə başsağlığı veririk. Böyük itkini heç bir sözlə ifadə etməyin mümkün olmadığını başa düşsək də, dərdinizi ağrı-acınızı sizinlə bölüşmək istəyirik.

İnanırıq ki, vaxt gələcək, hadisələrə düzgün qiymət veriləcək, millətlərarası toqquşmalara səbəb olanların, müxtəlif xalqların nümayəndələrinin dostluq və qardaşlıq şəhəri - beynəlmiləl Bakının adına ləkə vurmaq istəyənlərin mənfur siması hamıya bəlli olacaqdır. Taleyimizə düşən bu ağır sınaqdan müdrikliklə çıxmalı, çoxmillətli Bakının şərəfini ləyaqətlə qorumalıyıq.

Əziz həmyerlilərimiz - ruslar, ukraynalılar, beloruslar, yəhudilər, digər millətlərin nümayəndələri! Biz, - bütün bakılılar, hər cür dərdə-qüssəyə birlikdə dözmüşük. Həmin ənənəni bu gün də unutmayaq. Bizim taleyimiz də, kədərimiz də, sevincimiz də birdir. Xalqımızın bu çətin günlərində sizi yenidən birliyə və qardaşlığa çağırırıq: şayiələrə, fitnələrə inanmayın, öz evinizi tərk etməyin!

Azərbaycan xalqı bu torpaqda yaşayan bütün xalqların nümayəndələrinə səmimi münasibət bəsləmişdir və bəsləyir. Biz sizinlə birlikdə keşməkeşli, əzablı yol keçmiş və hər şeydən qiymətli olan birliyimizi həmişə qorumağa çalışmışıq.

Hər birimiz dinclik, əmin-amanlıq, dostluq şəraitində yaşamaq istəyirik. Hamımız yaxşı bilirik ki, regionda vəziyyəti Dağlıq Qarabağ məsələsinin qəti həllinin yubadılması kəskinləşdirmişdir.

Əziz bakılı qadınlar! Qoy beynəlmiləl birliyimiz bizi nifaqa və çəkişmələrə sürükləyənlərə cavab olsun. Qoy torpağımıza yenə də dinclik və sakitlik gəlsin!

**AZƏRBAYCAN KP BAKI KOMİTƏSİ**
**YANINDA QADINLAR ŞURASI.**

**“Bakı”**. - 1990. – 30 yanvar. - № 17 - S. 3.

# Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin və AHİŞ-in respublika zəhmətkeşlərinə və əhalisinə müraciəti

Əziz Yoldaşlar! Azərbaycan xalqı üçün bu həyəcanlı günlərdə biz əvəzedilməz itkilərin ağrısını ürəklərimizdə duyur, sizə müraciət edir, zəkanıza, gözəl qəlbinizə bel bağlayırıq.

Dərdimiz böyük, kədərimiz hədsizdir, lakin həyat davam edir, buna görə də bütün yaşayanlar naminə, uşaqların, qadınların, qocaların, hər bir ailənin rifahı naminə biz qəhərimizi boğub şəhər və kəndlərimizdə, bütün müəssisələrimizdə normal iş ahəngini bərpa etməliyik.

Bu gün Bakıda, respublikanın bir çox şəhər və rayonlarında sənaye və kənd təsərrüfatı obyektlərinin xeyli qismi işləmir, nəqliyyat, ticarət sahəsi az işləyir, Azərbaycan dəmir yolunda və onun hüdudlarından kənarda əhali üçün çox vacib yüklərlə dolu 9000-dən çox vaqon dayanıb. Şəhər və kənd sakinlərinin dava-dərmanla təminatı, xəstələrin müalicəxanalara çatdırılması çətinləşmişdir. Məktəblər işləmir. Milyonlarla vətəndaşın rahatlığı pozulmuşdur. Bütün bunlar ancaq o kəslərin xeyrinədir ki, onlar xalqın rifahına biganə baxırlar.

İndi millətlərarası ədavəti qızışdıran, vətəndaş itaətsizliyinə çağıran, vahimə salan, şuluqluqlar törədən şəxslərə qarşı qəti tədbirlər görülür. Respublikada sabitliyin pozulmasında fəal iştirak etmiş adamlar həbs olunurlar. Şübhə yoxdur ki, faciəli hadisələrdə müqəssir olanlar möhkəm cəzalanacaq, sovet qanunlarına tamamilə müvafiq surətdə məsuliyyət daşıyacaqlar.

Respublika yaşamalıdır. Biz unutmamalıyıq ki, onun milyonlarla sakini sabaha ümidlə baxır. Biz hər bir yaşayış məntəqəsində uşaqları, qocaları, qadınları su, ərzaq və istilik ilə təmin etməliyik. Bütün nəqliyyat növlərinin hərəkətini dərhal və tamamilə bərpa etmək lazımdır. Şəhər və kəndlərdə müəssisələr fasiləsiz işləməlidir. Bir sözlə, Respublikanın bütün həyat fəaliyyətini bərpa etmək hamımızın vəzifəsidir.

Biz bütün əhalini beynəlmiləl sıx birliyi möhkəmlətməyə, xalqlar arasında yaranmış qardaşlıq və dostluq ənənələrini qorumağa, maksimum vətəndaşlıq yetkinliyi göstərməyə çağırmalı, respublika da yaşayan bütün millətlərin nümayəndələri - ruslar, ukraynalılar, beloruslar, yəhudilər və başqaları ilə əl-ələ verib ümumi evimizdə qayda və asayişi bərpa etməliyik.

Əziz vətəndaşlar! Çoxmillətli respublikamızın əməkçiləri həmişə çətin anda sıx birləşməyi, dərdə dözüb, ona üstün gəlməyi bacarıblar. Xalqın sabahı hamımızın əməyindən, birliyimizdən asılıdır.

Sizi iş yerlərinə çıxmağa, hər bir evə, kəndə, rayona və şəhərə yeni həyat nəfəsi gətirməyə çağırırıq!

**“Bakı”.** - 1990. – 30 yanvar. - № 17 - S. 1.

# Oljas Suleymenovun müraciəti

Əziz dostlar, qardaşlar, bacılar!

Bakıda baş verən hadisələrdən yanvarın 21-də xəbər tutdum. Yanvarın 22-dən buradayam. Hər gün Azərbaycan xalqının nümayəndələri ilə - ziyalılarla, köhnə və təzə dostlarımla, qadınlarla, azərbaycanlı və rus analar ilə, tələbələrlə görüşmüşəm. Sanki qəm, ümidsizlik və ümid dənizinə qərq olmuşam. Lakin bu faciəli səhifəni çevirəcəyinizə inamınızın ilk işartılarını da görmüşəm. Mənə elə gəlir ki, bu çətin günlərdə Azərbaycan xalqı da, bu torpaqda on illərlə, əsrlərlə yanaşı yaşamış başqa millətlərin nümayəndələri də öz ləyaqətlərini qorumalı, özlərini, bir-birini, gələcəyə inamlarını itirməməli, bütün qüvvələrini toplamalı, son iki ilin, son günlərin acı təcrübəsini təhlil edib öz sabahlarını qurmaq barədə fikirləşməlidirlər.

Mənə çox adam müraciət edir, müxtəlif sənədlər göstərir, ürəklərinə dəyən yaralardan söz açırlar. Bəli, bu qəmli, faciəli günlərdə Bakının küçələrində çox nahaq qan axıdılıb. Mən müharibə alovlarına bürünmüş Əfqanıstan, Livan, Efiopiya, Anqola, Mozambik kimi ölkələrdə çox olmuşam. Lakin heç vaxt ağlıma gəlməzdi ki, bizim ölkəmizdə də belə ola bilər. Fikirləşməzdim ki, Bakıda mehmanxana nömrəsində yatdığım vaxt güllə səsləri eşidəcəyəm, şəhərin küçələri ilə gedəndə keşikçi əsgərlər məni saxlayıb müharibə dövrünün qayda-qanunları ilə yoxlayacaqlar.

Bəli, qoşun şəhərdədir. İlk dəfə görürəm ki, ordu sovet şəhərində silah işlədir. Əlbəttə, bu hadisələr diqqətlə araşdırılacaq, günahkarlar öz cəzalarını alacaqlar. İndi əsas məsələ bir yerə yığılıb nə etmək barədə fikirləşməkdir. Artıq əməli iş görmək lazımdır.

Matəm həftəsi arxada qalmışdır. Çalışmaq lazımdır ki, bu əhval-ruhiyyə, məyusluq, ruh düşkünlüyü davam etməsin. İşə başlamaq lazımdır. Ədalətli gələcək uğrunda aparılan mübarizəni yalnız işləməklə fəallaşdırmaq olar. İndi cəmiyyətin sağlam qüvvələrinin, ziyalıların çağırışına qulaq asmağın böyük əhəmiyyəti var. Mən azərbaycanlı dostlarımla - yazıçılarla, filosoflarla, psixoloqlarla, rəssamlarla... hər gün, hər saat bu barədə söhbət edirəm. Görürəm ki, Azərbaycanda cəmiyyətin inkişafının humanist strateji xəttinin işlənib hazırlanmasına başlanmışdır. Bu yeni yolda silah gücünə həll etmək istədiyimiz problemlər humanist vasitələrlə həll ediləcək. Silah insanlara yalnız müvəqqəti olaraq qorxu, dəhşət təlqin edə bilər. Bizim üz tutduğumuz gələcək federativ dövlət isə silah gücünə yox, könüllülük, şüurluluq üzərində duruş gətirəcəkdir. Bunu başa düşmək, respublikanın yeni rəhbərliyi ilə birlikdə inkişafın humanist, ədalətli xəttini, strateji planını işləyib hazırlamaq lazımdır.

Elə bilirəm ki, bu günlər məni sıxan, kədərləndirən hissləri başa düşürsünüz. Başa düşürsünüz ki, indi ürəyimdən neçə bir böyük ümid keçir. Mən çox istəyirəm ki, Azərbaycan xalqı bu çaşqınlıq halından çıxsın, özünün ən təmiz, ən işıqlı hiss və fikirlərini vulkan kimi püskürsün. Yalnız bu hiss və fikirlərin mərdliyi bütün dünyanı, Azərbaycan xalqını, onun mədəniyyətinin sadəcə olaraq insan həyatını xilas edəcək.

Bu kədərli qışdan sonra mütləq işıqlı bahar olacaq. O baharda mən Azərbaycana gələcəyəm və yenə də əvvəlki kimi şad-xürrəm bir yerdə olacağıq. Lakin faciəli günlər heç vaxt yadımdan çıxmayacaq. Bu çətin, qorxulu səhifə

örtülməlidir. Bu, Sovet İttifaqının, Azərbaycan tarixində dönüş mərhələsidir. Mənə elə gəlir ki, bu tarixin heç zaman bitməyəcək yeni bir dövr başlanır.

**Oljas SULEYMENOV,**

**Qazaxıstan Yazıçılar İttifaqı idarə heyətinin birinci katibi, SSRİ xalq deputatı**

**“Bakı”.** - 1990. – 31 yanvar. - № 18 - S. 2**.**

**Bakı Şəhər Partiya Komitəsinin və Bakı Şəhər Soveti İcraiyyə Komitəsinin Bakı şəhərinin əhalisinə müraciəti**

Əziz qardaşlar və bacılar! Hörmətli bakılılar!

İnsan tələfatı ilə nəticələnmiş faciəli hadisələr şəhərimizin hər bir sakininin dərdinə çevrilmişdir. İtkinin ağrı-acısını ifadə etmək üçün söz tapmaq mümkün deyildir. Dinc dövrdə günahsız adamlar həlak olmuşlar. Bu kədərli günlərdə unutmamalıyıq ki, həlak olanlar arasında azərbaycanlılarla birlikdə ruslar da, yəhudilər də, digər millətlərin nümayəndələri də vardır. Biz dərin kədər hissi keçirir, həlak olanların bütün qohumlarına və yaxın adamlarına başsağlığı veririk.

Bu gün biz qəlb ağrısı ilə görürük ki, məsuliyyətsiz şəxslərin, o cümlədən mərkəzi mətbuat səhifələrində apardıqları kampaniyanın təsiri altında Bakının rusdilli əhalisinin bir hissəsi doğma şəhərdən ayrılır. Bütün bunlar Bakıda guya artmaqda olan antirus əhval-ruhiyyəsi haqqında şayiələr və uydurmalar yayılmasına xidmət edir. Bu, iyrənc yalandır! Bu, Azərbaycan və rus xalqları arasındakı çoxəsrlik dostluğa nifaq salmaq cəhdlərindən başqa bir şey deyildir.

Bakı Şəhər Partiya Komitəsi, Bakı Şəhər Sovetinin İcraiyyə Komitəsi çoxmillətli şəhərimizin ictimaiyyəti adından tam məsuliyyət hissi ilə bildirirlər ki, azərbaycanlılarla rusdilli əhalinin dostluğunu heç kəs poza bilməyəcəkdir. Doğma şəhərimizdə asayişi təmin etmək, respublika paytaxtının həyatının, əmək ahənginin tezliklə normal hala düşməsi üçün şərait yaratmaq lazımdır.

Yadda saxlamaq lazımdır ki, şəhərdə fövqəladə vəziyyətin ləğv edilməsi bütünlüklə hər birimizdən, vəziyyəti normal hala salmaq, sakinlərin təhlükəsizliyini və şəhərin əmək ahəngini təmin etmək bacarığımızdan asılıdır.

Əziz bakılılar! Biz sizi beynəlmiləl birliyi, xalqların mehriban dostluğu ənənələrini möhkəmlətməyə, şəhərimizdə yaşayan bütün millətlərlə - ruslar, ukraynalılar, beloruslar, gürcülər, yəhudilər, ləzgilər, tatarlar və başqaları ilə əlbir şəraitdə ümumi evimizdə qayda-qanunu və sakitliyi bərpa etməyə çağırırıq.

İndi Bakıda həyat tədricən canlanır. Biz unutmamalıyıq ki, şəhərin yüz minlərlə əhalisi sabahkı günə ümidlə baxır. Buna görə da şəhərimizin hər bir sakininin - həm azərbaycanlıların, həm də rusdilli əhalinin vəzifəsi partiyanın və cəmiyyətin yeniləşdirilməsi uğrunda mübarizə aparmaqdan, fitnəkarlıqları ən qəti surətdə dəf etməkdən, öz səylərini xalqlarımızın «BAKILI» sözündə birləşən ənənəvi dostluğunun möhkəmləndirilməsinə yönəltməkdən ibarətdir.

**“Bakı”.** - 1990. – 31 yanvar. - № 18 - S. 1.

**Azərbaycanın çoxmillətli xalqına respublikanın Azərbaycan və rusdilli ictimaiyyəti nümayəndələrinin görüşü iştirakçılarının müraciəti**

Əziz yoldaşlar!

Azərbaycan torpağına kədər üz vermişdir. Heç bir günahı olmayan onlarca adam qanına qəltan edilmişdir. Onlar xalqın milli hissləri ilə oynamış, respublikanı hərc-mərclik girdabına yuvarlatmağa can atmış məsuliyyətsiz avantüristlərin siyasi hoqqabazlığının güdazına getmişlər.

Atalar məsəlidir, dostlar dar ayaqda tanınarlar. Bu ağır günlərdə əvəzsiz itkilərin dərdini azərbaycanlılarla birlikdə respublikanın bütün rusdilli əhalisi - ruslar, yəhudilər, ukraynalılar, beloruslar və başqaları da çəkirlər. Onlar beynəlmiləlçilik borcuna sadiq qalaraq, on illər boyu bir tikə çörəyini yarı böldükləri, can deyib, can eşitdikləri Azərbaycan xalqına öz samimi və dərin məhəbbətini sözdə də, işdə də sübut edirlər.

Lakin bizim hamımız üçün bu hüznlü vaxtda da bəziləri dinc durmur, onsuz da sönmək bilməyən millətlərarası münaqişə ocağına yenidən körük basmaq istəyir. Respublikanın rusdilli əhalisinə azərbaycanlıların guya ədavət bəslədikləri barədə şayiələr və uydurmalar yayılır. Bəzi kütləvi informasiya vasitələrinin köməyi ilə bu şayiələr və iftiralar Bakıda real vəziyyət faktları kimi qələmə verilir, ehtirasların daha da coşub gərginləşməsinə səbəb olur. Moskvada, ölkənin bir sıra digər şəhərlərində olan fitnəkarlar orada yaşayan azərbaycanlılara qarşı guya basqınlar hazırlandığı haqqında şayiələr yayırlar. Bütün bunlar adamlarda inamsızlıq hissləri doğurur, sosial şəraiti kəskinləşdirir.

Qoy heç kəs şübhə etməsin ki, azərbaycanlılar onlara mehriban hisslər bəsləyən rus xalqının, bütün xalqların və millətlərin dostları olmuş və olaraq qalırlar. Elə rus xalqına da millətçilik ideyaları tamamilə yaddır. O öz sülhsevərliyini, bütün xalqlara və millətlərə dar ayaqda arxa durmaq arzusunu bütün dünyaya dəfələrlə nümayiş etdirmişdir.

Dostluğumuz və qardaşlığımız ağrılı-acılı müharibə illərində çətin sınaqlardan çıxmışdır. Rusiyanın qarlı-çovğunlu çöllərində Hitler faşizminə qarşı döyüşlərdə Azərbaycan xalqının on minlərlə oğlu həlak olmuşdur. Rusiyadan, Ukraynadan, Belorusiyadan köçürülüb gətirilmiş minlərlə ailə BakIda və respublikanın digər şəhərlərində sığınacaq tapmışlar, onların qeydinə qalmışlar. Belə isə, biz neçə yol verə bilərik ki, dönüklər, millətçilər müqəddəs dostluğumuza nifaq salsınlar? Yox, bu heç vaxt baş tutmayacaqdır! Heç kəs aramızı vurmağa müvəffəq olmayacaqdır, biz birlikdə yaşamışıq və birlikdə də yaşayacağıq!

Biz respublikanın rusdilli əhalisinə müraciət edirik: fitnələr və araqızışdıran şayiələrə uymayın, öz doğma yurd-yuvanızı, ocağınızı atmayın. Azərbaycan xalqına böyük kədər, ağır fəlakət üz verdiyi vaxtda onu tərk edib tək qoysanız, sizi qınayarlar.

Biz rus ziyalılarının, Rusiyanın bütün şərəfli adamlarının nəcibliyinə və müdrikliyinə inanırıq. İnanırıq ki, onlar xalqlar dostluğu və qardaşlığı amallarının müdafiəsi uğrunda öz səsini ucaldacaq, rus torpağında

millətlərarası od-alovun tüğyan etməsinə yol verməyəcəklər. Biz əminik ki, mərkəzi kütləvi informasiya vasitələri, nəhayət, Azərbaycan haqqında, onun öz iradəsinin ziddinə olaraq neçə dəhşətli bir müsibətə düçar edildiyi haqqında həqiqəti bütün dünyaya bildirəcəklər.

Zaman ən ağır yaraların məlhəmidir. Azərbaycan xalqı yasdan çıxmaqdadır. Lakin davam edən tətil bütövlükdə ictimai-siyasi vəziyyətə son dərəcə mənfi təsir göstərir. Biz bunu xalqa açıqca bildirməyə borcluyuq, çünki söhbət heç də ayrı-ayrı istehsalatların sadəcə boş dayanmasından deyil, iqtisadiyyatın dağılmasından gedir ki, bunun da fəlakətli nəticələri ola bilər.

Biz Azərbaycanın zəhmətkeşlərinə, bütün əhalisinə üz tutub, onları öz iş yerlərinə qayıtmağa, normal əmək ahəngini ləngimədən bərpa etmək, bütün respublikanın üzərinə ağır yük kimi düşən geriliyin yerini doldurmaq üçün hər şey etməyə çağırırıq. Əmək sabitləşmənin və dirçəlişimizin ən mühüm şərtidir. Bu, övladlarımızın xoşbəxtliyi naminə, xalqımızın gələcəyi naminə, hər bir evdə dinclik və əmin-amanlıq naminə gərəkdir.

**Z. M. BÜNYADOV – Azərbaycan SSR Elmlər Akademiyasının akademiki, Sovet İttifaqı Qəhrəmanı; T. V. ŞELUDYAKOVA - Bakı Maliyyə-kredit Texnikumunun mavilimi; F. Q. KÖÇƏRLİ – Azərbaycan SSR Elmlər Akademiyasının akademiki; V. Y. PİNES - Azərbaycan SSR Elmlər Akademiyası Dilçilik İnstitutunun baş elmi işçisi; V. E. BƏRŞADLI - general-leytenant, C. Naxçıvanski adına internat məktəbin rəisi; E. K. QULİYEV - Bakı təcrübi ovuntu metallurgiyası zavodunun briqadiri; V. V. VİLKOV — Bakı mayesiz transformatorlar zavodunun sarıyıcısı; V. V. TOLKAÇOV — Xəzər Neft Donanması İdarəsi rəisinin müavini; R. Y. İVÇENKO – Azərbaycan SSR Ali Sovetinin deputatı, Bakı kamvol kombinatının əyiricisi; K. V. ŞERBAKOV - Bakı Şəhər İcraiyyə Komitəsi sədrinin birinci müavini; F. Ş. BƏDƏLBƏYLİ – Azərbaycan Musiqi Cəmiyyəti idarə heyətinin sədri, Azərbaycan SSR xalq artisti; Q. Ə. XƏLİLOV - Azərbaycan Tarix və Mədəniyyət Abidələrini Mühafizə Cəmiyyəti idarə heyətinin sədri; E. İ. ƏFƏNDİYEV (ELÇİN) - yazıçı, Azərbaycan SSR Ali Sovetinin deputatı; İ. P. TRETYAKOV - yazıçı, Azərbaycan SSR əməkdar incəsənət xadimi; K. Q. QLUŞKOV – «Bakinski raboçi» qəzetinin redaktoru; M. H. ABDULLAYEV - Azərbaycan SSR Ali Sovetinin deputatı, SSRİ xalq rəssamı; V. V. XRUSLOV - Azərbaycan SSR əməkdar rəssamı; M. Y. DADAŞOV - Azərbaycan SSR Ali Sovetinin deputatı, Azərbaycan SSR xalq artisti; D. İ. TUMARKİNA - Azərbaycan SSR xalq artisti; L. S. DUXOVNAYA - Azərbaycan SSR əməkdar artisti; X. H. MİRZƏZADƏ – bəstəkar, Azərbaycan SSR xalq artisti; Ə. T. USUBOV - Azərbaycan SSR əməkdar incəsənət xadimi; N. A. BABAYEV (Nəbi XƏZRİ) - Azərbaycan SSR Ali Sovetinin deputatı, Azərbaycan xalq şairi; M. Ə. HÜSEYNOV - Azərbaycan SSR Ali Sovetinin deputatı, SSRİ xalq arxitektoru, Sosialist Əməyi Qəhrəmanı; Z. Y. XANLAROVA - Azərbaycan SSR Ali Sovetinin deputatı, SSRİ xalq artisti; M. Ə. İBRAHİMOV - SSRİ xalq deputatı, Azərbaycan xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı; T. Ə. QULİYEV – bəstəkar, Azərbaycan SSR xalq artisti; R. V. FİLYUKİNA - Volodarski adına Bakı tikiş fabrikinin təlimatçısı; Y. A. TOKARJEVSKİ - Azərbaycan SSR Elmlər Akademiyası Tarix İnstitutunun aparıcı elmi işçisi; Y. N. RÜSTƏMOV - leytenant Şmidt adına Bakı maşınqayırma zavodunun fəhləsi; N. M. RZAYEV - Azərbaycan SSR Səhiyyə Nazirliyinin Elmi Tədqiqat**

**Klinik və Eksperimental Cərrahlıq İnstitutunun direktoru, professor; N. M. SÜLEYMANOV - «Kristal» xüsusi konstruktor-texnoloji metal qaynağı bürosunun direktoru, Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü.**

**Cəmi 151 imza.**

**“Bakı”.** - 1990. – 15 fevral. - № 31 - S. 1.

**Azərbaycan SSR gənclərinə və respublikada olan sovet ordusunun döyüşçülərinə Böyük Vətən Müharibəsi veteranlarının və beynəlmiləlçi döyüşçülərin müraciəti**

Biz, Böyük Vətən müharibəsinin və Əfqanıstanda döyüş əməliyyatlarının iştirakçıları, çox böyük insan tələfatının, yaxın adamlarını itirmiş ataların, anaların, qardaşların, bacıların hüzn və kədərinin canlı şahidləri bu ağır, bu faciəli, bu gərgin günlərdə sizə - beynəlmiləlçi Azərbaycanın gənc nəslinə və fövqəladə vəziyyətin tələblərini yerinə yetirən Sovet Ordusunun döyüşçülərinə müraciət edirik, sizi yüksək məsuliyyət hissi, mərdlik, dəyanət göstərməyə, respublikada və onun paytaxtı Bakıda vəziyyəti normal hala salmaq üçün zəmin yaratmağa çağırırıq.

Bu gün biz nəinki Böyük Vətən müharibəsi illərində, Əfqanıstanda döyüşlərdə həlak olmuş on milyonlarla adamın, həm də Bakıda baş vermiş yanvar faciələrinin günahsız qurbanlarının xatirəsi qarşısında baş əyirik. Bu qurbanlar arasında müxtəlif millətlərdən olan adamlar - tələbələr və alimlər, fəhlələr və əsgərlər olmuşlar. Baş vermiş hadisələrin səbəb və nəticələri ətraflı və obyektiv öyrənilməli, günahkarlar aşkara çıxarılmalı, bundan sonra belə hadisələrə yol verilməməsi üçün tədbirlər görülməlidir. Belə şəraitdə respublikanın bütün sakinlərinin sıx birliyi və mütəşəkkilliyi lazımdır. Sayıqlığı yüksəltmək, intizamı, qayda-qanunu möhkəmlətmək, son vaxtlar respublikanın məruz qaldığı iqtisadi ziyanın yerinin doldurulması məqsədi ilə qarşılıqlı anlaşmanı, yüksək əmək məhsuldarlığını təxmin etmək həmişəkindən daha çox vacibdir.

Bu problemlərin həllinə respublika gəncləri, Sovet Ordusunun döyüşçüləri böyük kömək edə bilər və etməlidirlər.

Biz gənclərə üz tuturuq - yadda saxlayın ki, Sovet Ordusunun döyüşçüləri sizin yaşıdlarınızdır, onlar hər cür hava şəraitində, keçə və gündüz Vətənimizin keşiyində dayanaraq əsgəri borclarını yerinə yetirirlər. Onlar Azərbaycana ictimai qayda yaradılmasında yerli hüquq mühafizə orqanlarına köməyə göndərilmişlər.

Onların nə günahı var ki, Bakıya qoşun yeridilərkən faciəyə yol verilmişdir? Bunu bildirməyi özümüzə borc sayırıq ki, biz hamımız gənclər ilə əsgərlər arasına, azərbaycanlılar, ruslar, yəhudilər, özbəklər və ya başqa millətlərin nümayəndələri arasına nifaq salmağa can atanları qətiyyətlə yerində oturtmalıyıq. Döyüşçülərə mürəkkəb vəziyyətdən operativ surətdə baş çıxarmağa kömək edin, onlara Azərbaycan gənclərinə xas ənənəvi xeyirxahlıq, mütəşəkkillik, əsgəri xidmətə hörmət göstərin, Bakıda və respublikanın digər rayonlarında fövqəladə vəziyyətin tezliklə götürülməsini təmin etməyə köməyinizi əsirgəməyin.

Biz sizə, Sovet Ordusunun döyüşçülərinə müraciət edirik!

Azərbaycanın həyatının bu sərt və faciəli dönüş dövründə respublikanın ərazisində əsgəri borcu yerinə yetirmək kimi üzərinizə çətin və məsuliyyətli vəzifə düşmüşdür. Biz sizdən xahiş edirik ki, yenidənqurmanın ideya və vəzifələrinin dincliklə həyata keçirilməsi üçün şəxsi məsuliyyətinizi bütün varlığınızla, dərin səmimiyyətlə, ağıl-kamalla dərk edəsiniz, 1990-cı ilin kədərli yanvar hadisələri nəticəsində Azərbaycan əhalisinin, xüsusən onun gənclərinin düşdüyü ağır psixoloji vəziyyəti başa düşəsiniz və onların dərdinə şərik olasınız. Azərbaycan xalqının ənənələrinə, adətlərinə, mədəniyyətinə hörmətlə yanaşın. Biz əsgərləri, serjantları,

onların bilavasitə komandirlərini əsgəri mədəniyyətə və şərəfə ciddi əməl etməyə, dərin həyəcan keçirən mehriban Azərbaycan xalqını mənfi əhval-ruhiyyəli ayrı-ayrı ünsürlərdən fərqləndirməyə çağırırıq.

Sizdən xahiş edirik ki, məktəblilərə xüsusi rəğbətlə yanaşın, onlara psixoloji sarsıntıdan, hərbi texnikanı, silahlı əsərləri gördükdə keçirdikləri vahimədən can qurtarmağa kömək edin. Yerli əhali ilə, gənələrlə ünsiyyətdə olun, bu, xeyirxahlıq və qarşılıqlı anlaşma mühiti yaranmasına kömək edər.

Çoxmillətli Vətənimiz uğrunda canından keçmiş və cəmiyyətimizin yenidən qurulmasında fəal iştirak edən atalarınızın, babalarınızın, analarınızın vətənpərvərlik, beynəlmiləlçilik ənənələrinə layiq olun.

**T. AĞAHÜSEYNOV, ehtiyatda olan general-polkovnik; H. QASIMBƏYOV, istefada olan vitse-admiral; V. BƏRŞADLI, istefada olan general-leytenant; M. NƏSİROV, istefada olan general-mayor; B. HÜSEYNOV, istefada olan general-mayor; A. ABBASOV, istefada olan general-mayor. İ. SERGEYEV, istefada olan general-mayor, M. MƏHƏRRƏMOV, Sovet İttifaqı Qəhrəmanı; C. İSMAYILOV, Azərbaycan LKKİ MK yanında beynəlmiləlçi döyüşçülər şurasının sədri; D. MƏMMƏDOV, beynəlmiləlçi döyüşçü; M. SÜLEYMANOV, beynəlmiləlçi döyüşçü; M.İSGƏNDƏROV, beynəlmiləlçi döyüşçü və başqaları.**

**“Bakı”.** - 1990. – 24 fevral. - № 39 - S. 1**.**

## Bakıda təhsil almış leninqradlıların müraciəti

**Razın qəsəbəsindəki 4 nömrəli uşaq musiqi məktəbinin direktoru Aleksey Vladimirov əslən leninqradlıdır. Böyük Vətən müharibəsindən sonra Bakıya gəlmiş, burada Ü. Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. Elə o vaxtdan ömrünü şəhərimizlə bağlamışdır. 35 ildən çoxdur ki, 4 nömrəli uşaq musiqi məktəbinin direktorudur. Xoşbəxt ailə başçısı, mehriban babadır.**

**Faciəli yanvar hadisələrindən bir qədər əvvəl o, Leninqradda ezamiyyətdə olmuş, xalqımızın başına gələn müsibəti orada eşitmişdir. Aleksey Mixayloviç deyir:**

**— Bu xəbər mənim kimi, bütün dost və tanışlarımı da bərk sarsıtdı. Onlar kədərləndiklərini bakılılara çatdırmağı xahiş edir, xalqımıza başsağlığı verirdilər. Sonra məndən xahiş etdilər ki, onların bu müraciətini bakılılara yetirim:**

**ƏZİZ BAKILILAR!**

Bu gün biz leninqradlılar - bu şəhərdə böyümüş, ağır mühasirə günlərində onun müdafiəsinə qalxmış, millətindən asılı olmayaraq bütün insanlara hörmət və qardaşlıq duyğuları ruhunda tərbiyə olunmuş adamlar sizə müraciət edirik.

Hər bir insan üçün unudulmaz olan gənclik illərində tale bizi Bakı ilə qovuşdurdu. 1947-ci ildə Bakıda zabit rütbəsi alaraq donanmada Vətənə xidmət etməyə başladıq. Elə o vaxtdan da sizin gözəl şəhəriniz qəlbimizdə, ürəyimizdə müdrik adamlar, əsl ziyalılar və beynəlmiləlçilər şəhəri kimi yaşayır. Bakılıların xeyirxahlığını, qonaqpərvərliyini yaxşı xatırlayır və yüksək qiymətləndiririk.

Böyük ürək ağrısı ilə öyrəndik ki, Bakıda qanlı qırğın və dəhşətli cinayət baş vermişdir. Biz faciəli yanvar günlərində günahsız qurban getmiş şəhidlərə sizinlə birlikdə yas saxlayırıq.

Bu günlər Bakı haqqında eşitdiklərimizə inana bilmir və hadisələrin mahiyyətini başa düşməkdə çətinlik çəkirik. Bizim nəzərimizdə sakinlərin yüksək mədəniyyəti, ziyalılığı, əməksevərliyi, doğma şəhərə məhəbbəti, əhalinin bütün təbəqələrinin beynəlmiləlçiliyi Leninqrad ilə Bakını bir-birinə doğmalaşdırır.

Xalqlarımız arasındakı dostluğu yüksək qiymətləndiririk. 1941-i ildə mühasirədə olan Leninqradda Nizaminin 800 illik yubileyinin qeyd edilməsini, zəmanəmizin görkəmli sənətkarları Q. Kozintsevin və Q. Qarayevin birgə yaradıcılığının bəhrəsi olan «Don Kixot» filmini, Qara Qarayevin «İldırımlı yollarla» baletini ilk dəfə tamaşaya qoymağı Kirov adına teatra etibar etməsini yaxşı xatırlayırıq.

1941-44-cü illərdə Leninqradın müdafiəsində qəhrəmanlıqlar göstərmiş azərbaycanlıların hünərini, igid təyyarəçi Hüseynbala Əliyevi də yaxşı xatırlayırıq.

Bakıda baş vermiş faciəli hadisələr üçün bir daha kədərlənir, sizi həmvətənlər, adamlar, ailələr arasındakı dostluğu qorumağa çağırırıq.

Ümid edirik ki, Azərbaycan, xüsusilə Bakı ziyalıları öz məsuliyyətlərini yaxşı başa düşürlər, dostluğun və əmin-amanlığın bərqərar olması üçün əllərindən kələni əsirgəməyəcəklər.

İnanırıq ki, aramızdakı dostluq əlaqələri möhkəmlənəcək və inkişaf edəcəkdir.

**Böyük Vətən müharibəsinin və Leninqrad şəhəri müdafiəsinin iştirakçılarının, Xəzər Ali Hərbi Dənizçilik Məktəbini 1947-ci ildə bitirmiş məzunların tapşırığı ilə:**

**İ. QULYAYEV, təşkilat komitəsinin sədri, Sovet İttifaqı Qəhrəmanı, birinci dərəcəli kapitan, D. ERDMAN, kontr-admiral, professor, B. BAXAREV, birinci dərəcəli kapitan, hərbi-dəniz elmləri namizədi, dosent, S. YERŞOV, birinci dərəcəli kapitan, baş elmi işçi, V. İVANOV, birinci dərəcəli kapitan, hərbi-dəniz elmləri namizədi, dosent, Q. KONDRATENKO, birinci dərəcəli kapitan, texnika elmləri doktoru, professor, Y. KOROBOV, birinci dərəcəli kapitan, texnika elmləri doktoru, professor, R. URVA, birinci dərəcəli kapitan, baş elmi işçi, Y. YUROVSKİ, kapitan-leytenant, iqtisad elmləri namizədi, V. NOVİKOV, Leninqrad Müharibə Veteranları Komitəsi sədrinin müavini, polkovnik.**

**“Bakı”.** - 1990. – 2 mart. - № 44 - S. 2.

# Sovet İttifaqı prezidenti cənab M. S. Qorbaçova Mayns şəhərinin əhalisinin müraciəti

*Azərbaycanın paytaxtı Bakı şəhərilə*
*qardaşlıq əlaqələri olan Maynsdan*
*Azərbaycan həmrəylik komitəsinə*

Biz 20 yanvar 1990-cı ildə Moskva hərbi qüvvələrinin Azərbaycana silahlı basqınına etiraz səsimizi ucaldır və «perestroyka», «qlasnost» adı altında qan axıdılmasını kəskin ittiham edirik. Bununla Sizdən bu kütləvi qırğını dərhal dayandırmağı və Azərbaycandan bütün silahlı qüvvələrin çıxarılmasını insan hüquqları adından tələb edirik. Respublikanın suverenliyini xalqın daxili işlərinə qarışmadan öz ixtiyarına verməyinizi tələb edirik.

**SOVET SOSİALİST RESPUBLİKALARI**
**İTTİFAQININ BONNDAKI SƏFİRİNƏ**
**VALDŞTR. (KÜÇ.) 42.**
**53 BONN 2.**

**“Azərbaycan”. -** 1990. – 2 mart. - N 4. - S. 2.

# SSRİ Nazirlər Kabinetinin partiya təşkilatına müraciəti (19 iyul 1991-ci il)

Sizin nəzərinizə çatdırıram ki, mən Sov.İKP-dən çıxmaq qərarına gəldim. Dərhal xəbərdarlıq edirəm ki, bu, sadəcə, «dəbə» uymaq deyil, son illər ərzində keçdiyim ağır məyusluqlar yolunun məşəqqətləri və hadisələrini yenidən qiymətləndirməyimin yekunudur.

Məni bu addımı atmağa məcbur edən başlıca səbəblər aşağıdakılardır:

**Birincisi,** hələ 1990-cı ilin yanvarında Mərkəzin və Azərbaycan KP-nin siyasi rəhbərliyi altında Azərbaycan xalqına qarşı edilmiş hərbi təcavüzdən sonra məndə Sov.İKP sıralarından çıxmaq fikri yarandı. Yanvar hadisələrində yüzlərlə adam öldürüldü və şikəst edildi. Bu antihumanist, konstitusiyaya və hüquqa zidd hərəkəti ittiham edərkən Sov.İKP və Azərbaycan KP MK-nın bu cinayətin üstünü açacağına və günahkarları üzə çıxaracağına ümid bağlayırdım.

Özümü ələ alıb səbrlə gözlədim. Çıxışlarıma cavab əvəzinə çox çəkmədi ki, «Pravda»dan başlayaraq partiyanın mətbu orqanlarında mənə qarşı hücumlar təşkil edildi. Mənə qarşı yönəldilmiş uydurma faktları əsaslandırılmış şəkildə həmin kütləvi informasiya vasitələrinin özündəcə təkzib etmək cəhdlərim boşa çıxdı. Yenidənqurmanın əsas nailiyyəti olan aşkarlıq özünü birtərəfli göstərirdi.

Yanvar faciəsinin günahkarlarını üzə çıxarmaq və cəzalandırmaq haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, ayrı-ayrı vətəndaşların, görkəmli ziyalıların müraciətlərini Azərbaycan kommunist rəhbərliyi qətiyyətlə rədd edirdi.

Artıq il yarım keçib. Nəinki bu dəhşətli cinayətlərin hamıya çoxdan məlum olan günahkarları üzə çıxarılmayıb, əksinə, bunları ört-basdır etmək üçün əllərindən gələni edirlər. Ümid edirlər ki, zaman keçdikcə bu faciə unudulacaq. Ancaq tarix dəfələrlə sübut etmişdir ki, doğma xalqa qarşı yönəldilmiş qanlı cinayətləri on illər keçsə də, unutmaq və bağışlamaq mümkün deyil.

**İkincisi**, üç ildən artıqdır ki, Mərkəzin ikiüzlü siyasəti nəticəsində, Sov.İKP-nin havadarlıq etdiyi erməni millətçilərinin səyi ilə DQMV-də yaranmış kəskin münaqişəli vəziyyət saxlanmaqdadır. Vilayət əslində tamamilə Azərbaycanın dövlət idarəçiliyindən çıxıbdır.

Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü konstitusiyaya zidd olaraq kobud şəkildə pozulub. Ermənistan və Azərbaycan arasında elan edilməmiş müharibə gedir. Hər gün iki tərəfdən də adamlar ölür. Bütün bunlar «humanist ideologiyalı» Sovet dövləti üçün adi haldır.

Əminəm ki, partiya rəhbərliyi istəsəydi, hələ 1987-ci ildə üzdəniraq Qarabağ problemi ətrafında milli münaqişə təzə başlananda onun qarşısını ala bilərdi, get-gedə güclənən qarşıdurmaya və həm Azərbaycan, həm də erməni xalqına ağır fəlakət və müsibətlər gətirmiş bu qırğınlara imkan verməzdi. Deməli, siyasi Mərkəzə bu münaqişə lazımdır.

**Üçüncüsü**, bütün cəmiyyətin demokratikləşməsi, siyasi azadlıqların və plüralizmin bəyan edildiyi bir dövrdə Azərbaycanda ərazi bütövlüyünün müdafiəsinə qalxmış geniş demokratik hərəkat və cəmiyyətim

demokratikləşməsi Sov.İKP-nin rəhbərliyi altında Azərbaycan KP MK-nın səyi ilə boğulur. Bu illərdə nə qədər adam siyasi fəaliyyətinə görə repressiyalara məruz qalıb.

İl yarımdır ki, Azərbaycanın 2 milyonluq paytaxtı heç bir əsas olmadan fövqəladə vəziyyət rejimində yaşayır. Məhz belə bir şəraitdə respublika Ali Sovetinə üzdəniraq demokratik seçkilər və nəticələri İttifaqın xeyrinə irəlicədən həll olunmuş referendum keçirilmişdir. Fövqəladə vəziyyət şəraitində hər hansı demokratikləşməyə və xalqın iradəsini sərbəst ifadə etməsinə ümid bağlamaq avamlıq olardı. Demokratik təşkilatlar dəfələrlə seçiciləri« əksəriyyətimin referendumda iştirak etməməsi və referendumun nəticələrinin saxtalaşdırılması barədə məsələ qaldırmışlar. Ancaq Azərbaycanın kommunist rəhbərliyi bu müraciətlərə hətta baxmağa belə lüzum bilməyib.

Mən Mərkəz tərəfindən sırınan yeni İttifaq müqaviləsinin əleyhinə çıxmışam və çıxıram. hər hansı bir suveren dövlətim tərkibində bir neçə suveren dövlət və eləcə də bundan irəli gələn azadlıqlar, səlahiyyətlər və funksiyalar ola bilməz. Bütün müttəfiq respublikalara əsl siyasi, iqtisadi azadlıqlara, milli dövlət dirçəlişi üçün müstəqilliyə imkan vermək lazımdır. Bu heç də respublikaların iqtisadi birliyinə və ənənəvi mədəni əlaqələrinə mane olmaz, əksinə, onların təkmilləşməsinə, ikitərəfli və çoxtərəfli istiqamətdə inkişafına təsir göstərər.

Naxçıvan Muxtar Respublikasının və Azərbaycanın xalq deputatı kimi öz çıxışlarımda bu məsələləri dəfələrlə qaldırdım. Təklif etdim ki, xalq arasında tam nüfuzunu itirmiş Azərbaycan KP təkhakimiyyətlikdən imtina etsin, bütün siyasi qüvvələrin azad və bərabərhüquqlu fəaliyyətini təmin etsin, demokratik cəmiyyətin yaranmasına, aşkarlıq və plüralizmə şərait yaratsın.

Ancaq bu çıxış və təkliflərimə Azərbaycanın kommunist rəhbərliyi nəinki baxır, əksinə, mənim ünvanıma təşkil olunmuş və hazırlanmış hücumlar şəklində cavab verir. Azərbaycanda mənim çıxışlarımı dərc edən qəzet redaktorları, jurnalistlər işdən çıxarılır, təqiblərə məruz qalırlar.

Bütün yuxarıda ifadə etdiklərim məni bu axırıncı addımı atmağa və Sov.İKP sıralarından çıxmaq haqqında bəyanat verməyə məcbur etdi; baxmayaraq ki, bu qərara gəlmək mənim üçün olduqca çətin olub.

Mən kommunist ailəsində böyümüşəm və bütün şüurlu həyatım Kommunist partiyası ilə bağlı olub. 1943-cü ildə 20 yaşında ikən öz taleyimi bolşeviklər partiyasına bağlamışam. Kommunist partiyasının ideallarına varlığımla inanmışam və onun planlarının həyata keçirilməsində fəal iştirak etmişəm.

İndi bütün bu inamlarım məhv olub. Yeniləşən partiya və respublikaların yeniləşən ittifaqı haqqında saysız-hesabsız bəyanatlar yenə də xalqı aldatmaqdır.

Xalqa açıq və doğrusunu demək lazımdır ki, bizim ölkədə kommunizm eksperimenti, sosializm yolu özünü doğrultmadı, zorakılıqla yaranan və saxlanan respublikaların ittifaqı süquta uğramaqdadır.

Bu bəyanatdan sonra qarşıma çıxa biləcək çətinlikləri təsəvvür edir, hər cür hücumları və mənəvi zərbələri qabaqcadan görürəm.

Partiyanın keçdiyi yolun ayıq təhlili məni yuxarıda bəyan etdiyim indiki mövqeyə gətirdi.

Bununla belə üzərimə düşən məsuliyyətin dərəcəsini də başa düşürəm. Sov.İKP sıralarını tərk edərkən, mən bütün təmiz və namuslu kommunistlərə hörmət bəslədiyimi bildirirəm.

**Heydər ƏLİYEV.**

**19 iyul 1991-ci il, Moskva şəhəri**

**«Nezavisimayz qazeta», 23 iyul 1991-ci il, «Azadlıq» qəzeti, 26 iyul 1991-ci il**

**Əliyev Heydər. Şəxsi mövqe. – Bakı. - 1994. - S. 20-23.**

## Heydər Əliyevin 20 Yanvar faciəsinin dördüncü ildönümü münasibətilə xalqa müraciəti (19 yanvar 1994)

Mənim əzizlərim!

Bu gün, tariximizə qızıl qanla yazılmış 20 Yanvar faciəsinin 4-cü ildönümündə Qanlı Yanvarın günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad edib, hələ qanı alınmamış şəhidlərimizin ruhu qarşısında baş əyirəm.

Mən azadlığımız uğrunda mübarizədə ölməzliyə qovuşmuş oğul və qızlarımızın ailələrinə, yaxınlarına və əzizlərinə, bir sözlə, Azərbaycan xalqına başsağlığı verir və bu hüznlü çağlarımızda şəhidlərimizin ruhu naminə hamını birləşməyə çağırıram.

Bu gün özümüz özümüz uğrunda, mənəvi dünyamızın paklığı uğrunda ayağa qalxmalıyıq. Faciələr burulğanından xilas olmaq üçün inamımıza sarılıb gələcəyə boylanmalıyıq.

Prezident kimi mənə müraciət edən şəhid ailələri, Azərbaycanın bütün vətəndaşları haqqın, ədalətin tezliklə bərqərar olmasını tələb edirlər. Şəhidlik zirvəsinə ucalmış övladlarımızın Vətən torpağına bəxş etdiyi müqəddəsliyə, gözləri buludlanmış ağsaçlı ana və bacılarımızın əyilməz vüqarına and içərək deyirəm: inanın, bu gün üzərində qara buludların cövlan etdiyi ana torpağımızın düçar olduğu müsibət və fəlakətə son qoyulacaqdır. Qalx, ey müqəddəs xalqımız!

**19 yanvar 1994-cü il**